# KÜTLƏNİN RƏYİNİ AZDIRMAQ

<"xml encoding="UTF-8?>

KÜTLƏNİN RƏYİNİ AZDIRMAQ

“Qədir-Xum” iştirakçılarının sayı təqribən 120 min nəfər idi və onların içərisində Mədinəyə qayıdanların sayı isə çox az qeyd olunmuşdur. Çünki Mədinəyə çatmazdan öncə bə`ziləri Şama, bə`ziləri Yəmənə və Ərəbistan yarımadasının cənub bölgəsinə doğru yola düşdülər. Peyğəmbəri-Əkrəm (s)-lə Mədinədən Məkkəyə gedənlərdən on min nəfərlik bir qrup da ətraf məntəqələrdən idilər  ki, o həzrətə Mədinədə qoşulmuşdular.

Burada da onların bə`ziləri qadın, bə`ziləri isə yaşlılar idi ki, ictimai səhnələrdə heç bir rol ifa etmirdilər. (4-5 min nəfərdən ibarət olan bu qrupun) çox hissəsini qullar və fəqirlər təşkil edirdi ki, müxtəlif məntəqələrdən gəlib Peyğəmbərə qoşulmuşdu, onların Mədinədə əsla qohum-əqrəbaları yox idi. Buna “Süffə” əhlini misal göstərmək olar. Deməli, bu arada sayı təqribən iki mindən çox olmayan bir dəstə qalırdı ki, onlar da adətən, rəislər və qəbilə başçıları idi. Bunlardan əlavə, Peyğəmbər (s)-in göstərişi ilə Mədinənin kənarında Üsamənin ordusu (Curf ordugahında olanlar) şəhərdə olmadıqları üçün heç bir qərar çıxara bilmirdilər.

Bə`ziləri də xilafət və hakimiyyətin Peyğəmbəri-Əkrəm (s)-dən sonra Əli ibn Əbi Talibə (ə) çatmayacağına sə`y etməklə bağlı əhd-peyman bağlayanlar idi. Deməli, mə`lum olur ki, onlar imkan daxilində müsəlmanlar arasında əks-təbliğat aparmaq, iğtişaş yaratmaq və bə`zilərini aldatmaqla “Qədir-Xum” hadisəsinin şahidlərini özlərinə cəlb etməyə, yaxud da heç olmazsa, bitərəf mövqedə olmağa vadar etmək istəyirdi. Necə ki, Peyğəmbəri-Əkrəm (s)-in vəfatından sonra belə də oldu və “Qədir-Xum” hadisəsinə şahid olanların çoxu ya xəlifənin tərəfdarları oldular, ya da bitərəf mövqedə qaldılar.

Həmçinin, Əhli-beyt tərəfdarlarının “Səqifə”də təşkil olunmuş yığıncaqdan xəbərsiz qalmaları da digər amillərə əlavə olunur. Onlar Əbu Bəkrlə bey`ətdən o zaman xəbər tutdular ki, artıq müxalif .qüvvələrin işi möhkəmlənmişdi